**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**

# MƏLUMAT MƏKTUBU

***Hörmətli həmkarlar !***

Sizi 24 dekabr 2021-ci il tarixində Lənkəran Dövlət Universitetində **"Çağdaş dönəmdə Türk dünyasının aktual problemləri"** mövzusunda keçiriləcək Respublika elmi konfransında iştirak etməyə dəvət edirik.

**Konfransın işçi dilləri:** Azərbaycan, Rus və İngilis

**Tezislərin tərtibinə qoyulan tələblər:**

1. Tezislər Times New Roman 12 şriftlə, 1 intervalla yazılmalıdır.
2. Tezis mətni 1-2 səhifə aralığında olmalı və konfransın adına uyğun tərtib edilməlidir.
3. Tezisin mətni Azərbaycan, Rus, İngilis və Türk dillərində verilə bilər.
4. Tezisdə müəllifin soyadı, adı, elmi adı və elmi dərəcəsi, aid olduğu müəssisə və e-mail ünvanı göstərilməlidir.
5. Elmi dərəcəsi olmayanlar üçün təsdiqli rəy, həmçinin doktorant və dissertantlar üçün elmi rəhbərlərinin təsdiqli rəyi tələb olunur.
6. Magistrantlar tezislərini elmi rəhbərləri ilə birgə, magistr dərəcəlilər isə ixtisası üzrə elmi dərəcəli müəlliflə birlikdə təqdim etməlidir. (Elmi dərəcəli həmmüəllifin rəyi olmaqla)
7. Müəlliflər, tezislərini aid olduqları müvafiq müəssisə rəhbərinin razılıq məktubu ilə birlikdə təqdim etməlidirlər.
8. Müəlliflərdən ən azı biri konfransda iştirak etməlidir, iştirak etməyən müəllifin (müəlliflərin) tezisi çap olunmayacaqdır.
9. Tezisdəki orfoqrafik səhvlər üçün müəllif məsuliyyət daşımaqdadır.
10. Konfrans üçün tezislər 4 dekabr 2021-ci il tarixinədək qəbul ediləcəkdir.
11. Hazırlanan tezislər **elmi_tezis@lsu.edu.az** elektron ünvanında qəbul olunur.

***Konfransın Təşkilat Komitəsinin ünvanı:***
***Lənkəran şəhəri Füzuli küçəsi 170. 1 saylı tədris korpusu***
***e-mail:*** elmi_tezis@lsu.edu.az